*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 68-72* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.2.68*

# Nurəngiz Günün nəsri

**Bahar Məmmədova (Bərdəli)**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: baharmemmedova288@gmail.com

**Annotasiya.** Nurəngiz Gün XX əsrin 80-ci illərində ədəbiyyata gəlib. Əsasən, şair və nasir kimi tanınıb. Nəsr əsərləri onun yaradıcılığında əsas yer tutur. Yazarın şeirləri kimi – nəsr əsərləri də həyat gerçəkliyinin bədii əksidir. İlk nəsr əsəri olan “Tanrı bəşər övladıdır” povesti 1981-ci ildə “Ulduz” jurnalında çap olunub. Əsər 70-80-ci illərdə kənddə gedən ictimai-sosial proseslərə, əxlaqi-mənəvi dəyərlərə, mənəvi aşınmaya həsr olunub. Povestdə kimsəsiz, yetim uşaqların çəkdiyi əzablar ön plana çıxarılıb.
Yazarın digər povesti “Qırmızı gecə” adlanır. Əsərdə həyatla ölüm arasında çabalayan gənc ananın həyatı, düşüncələri təsvir olunub. Nurəngiz Gün üstüörtülü şəkildə həyat hadisələrini önə çəkərək çox mətləblərə toxunub.
“Ən hündür çiçək təpəsi və qar quyu” hekayəsində müəllif keçən əsrin 40-70-ci illərini əks etdirir. Yəni İkinci Cahan müharibəsi nəticəsində baş verən bir ailə faciəsi, yetim qalan bir uşağın sonrakı taleyi diqqət mərkəzindədir.
**Açar sözlər:** Nurəngiz Gün, Tanrı, nəsr, povest, kənd, şəhər

**Məqalə tarixçəsi:** göndərilib – 24.09.2024; qəbul edilib – 04.10.2024

# Prose of Nurangiz Gun

**Bahar Mammadova (Bardali)**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: baharmemmedova288@gmail.com

**Abstract.** Nurangiz Gun came to literature in the 80s of the 20th century. She is known as a poet and prose writer. Prose works occupy the main place in her creativity. Prose works, like the author's poems, are an artistic reflection of the reality of life. The first prose work is the story "God is a human being", published in 1981 in “Ulduz” magazine. The work is dedicated to public and social processes, moral and spiritual values, and moral erosion in the village in the 70s and 80s. In the story the sufferings of orphaned children were brought to the fore.
Another story of the author is called “Red Night”. The work describes the life and thoughts of a young mother struggling between life and death. Nurangiz Gun covers many topics by implicitly highlighting life events.

In the story "The Highest Flower Hill and The Snow Well", the author reflects the 40s-70s of the last century. That is, a family tragedy that occurred as a result of the Second World War, and the subsequent fate of an orphaned child are in the spotlight.
**Keywords**: Nurangiz Gun, God, prose, novel, village, town

**Article history:** received – 24.09.2024; accepted − 04.10.2024

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatında özünəməxsus yeri, mövqeyi, dəst-xəti olan şair, nasir, publisist Nurəngiz Gün keçən əsrin 80-ci illər ədəbi nəslinə mənsubdur. Onun yaradıcılığında nəsr əsərləri mühüm yer tutur. Yazarın şeir-poemalarında olduğu kimi, nəsri də həyat hadisələrinin-gerçəkliyin bədii əksidir.

Nurəngiz Gün nəsr əsərlərində müharibə və onun cəmiyyətə, insanlara vurduğu maddi-mənəvi zərbələrin ağırlığını, bu ağırlığın bir neçə nəslin üzərində davam etməsini çox təbii, real boyalarla təsvir edə bilmişdir. Müəllif göstərmişdir ki, müharibələr, hətta qalib gələn xalqlara belə xeyir gətirmir. Çünki onun dağıdıcı xarakteri, insanların kütləvi şəkildə məhv edilməsi, qalanların şikəst və əlil olması, yetim, kimsəsiz uşaqların sonrakı acınacaqlı taleyi heç də asanlıqla həll olunacaq məsələlər deyildir.

## Əsas hissə / *Main Part*

Müəllifin ilk mətbu əsəri 1981-ci ildə "Ulduz" jurnalında çap olunan "Tanrı bəşər övladıdır" adlı povestidir. Povestin epiqraf yerində oxuyuruq: "Bu kitabı sizə həsr edirəm, mənim fatimələrim, kozettalarım, zoluşkalarım! Ruhunuza aramsız bir nəğmə oxuyuram!" [1, s.7]

Əsərin baş qəhrəmanı gənc xanımdır, Bakıda yaşayır, azyaşlı bir qızı da var. Povestin süjet xətti bu xanımın Bakıdan bölgəyə getməsi, qohumlarının evində qonaq qalması, uşaqlığının keçdiyi bu kənddəki xatirələri və s. üzərində qurulub. Bəlkə də, bu gənc xanım, yəni Məryəm elə yazarın öz prototipidir. Əsərdə ən çox əxlaqi-mənəvi keyfiyyətlər diqqət mərkəzindədir. Biz müxtəlif dünyagörüşlü insan obrazları qaleriyasında həyata, cəmiyyətə, insanlara baxışların müxtəlifliyini görürük. Bibi, bibiqızı, bibioğlu, onun yeznəsi, dostu, kənd adamları – kasıb, amma gözütox, yetim uşaqlar, onların problemləri povestin əsas qayəsidir.

Akademik Bəkir Nəbiyev "Nəsrimiz bu gün" məqaləsində 1960-1970 və 1980-ci illərdə ədəbiyyata gələn yazıçıların əsərlərinə nəzər salarkən qeyd edir ki, "Müasir yazıçının, əsl sənətkarın yaradıcılıq yolu həyatın, cəmiyyətin inkişaf mərhələləri ilə bağlı olan əxlaqi-mənəvi problemlərdən ayrı təsəvvür edilmir. Bu problemlər yazmağa başladığı ilk ciddi əsərlərdən tutmuş, yetkin çağlarında böyük şöhrət gətirən ən qiymətli əsərlərədək həmişə sənətkarın diqqət mərkəzində olur, onu düşündürür, həyəcanlandırır" [2, s.24].

Bu mənada Nurəngiz Gün də mənəvi-əxlaqi prinsiplərə söykənərək həm qəhrəmanı Məryəmin uşaqlıq illərini, onun düşüncələrini, gördüklərini, duyduqlarını, həm də Zərnigarın ev qulluqçusu Qınıqın başına gələnləri təsvir edir. Bir ailə fonunda baş verən hadisələr süjet boyu bir-birini əvəzləyir. Ata-anası sağ ikən Məryəmin bu kənddə uşaqlığı çox şən keçib. Ərköyün, nazlı bir qız olan Məryəmi atası "Tanrı, Tanrım", – deyə çağırardı. Bu tanrını yalnız özgələrinin dərdi, ağrısı ağladardı və kənddə olan yetim uşaqlara nədəsə kömək etməyə çalışırdı.

Akademik daha sonra yazır: "...ədəbiyyatımızın ən yaxşı nümunələrinin hamısında çox vacib əxlaqi-mənəvi məsələlər insanın daxili aləminin bədii təşrihi vasitəsilə açılıb təqdim olunur və surətlərin münasibəti bədii təsvirin, təhkiyənin əsasını təşkil edir" [2, s.24].

Əsərdə oxuyuruq: “Bir novruz bayramı dalanlarının dibində yaşayan Qızxanım arvadla yetim nəvəsi cuqqulu Rəna dünyalarca sevinmişdi. Bayram axşamı ona və nənəsi Qızxanım arvada çoxlu şəkərbura, paxlava, qovurğa, ləbləbi, iki yaşıl şam, iki qırmızı yumurta, hər şey, hər şey, hələ üstəlik qırmızı güllü markizet paltar da gətirmişdi. Sevinmişdi cuqqulu Rəna” [1, s.11].

Məryəmin uşaqlığı bu kənddə, bağ-bağçası meyvə dolu bir qırmızı kərpicli evdə keçmişdi. Meşənin kənarında olan bu evdə o, atalı-analı, qohum-əqrabalı, qonum-qonşulu böyümüşdü. Amma indi o nəsil artıq köçmüşdü dünyadan. Yalnız bibisi yaşayırdı, bir də onun qızı və ailəsi idi. Bakıda olan Məryəm həmişə o qırmızı kərpicli evin həsrətilə yaşayıb. Görəsən o ev yerindəmi, ya söküb atıblar? Bütün ömrü boyu xəyalının və yuxularının rəngli bəzəyi olan bu kəndin qırmızı damlı evlərinin arasından daha vüqarla qızaran qıpqırmızı kərpicli ev... Onu şəhər evlərindən fərqləndirən taxçalı, boxçalı guşəsinin həsrəti çəkib gətirmişdi bura. Amma yox, o kəndi indi ikimərtəbəli, ağ daş evlər bəzəyirdi. Həyətləri gül-çəmənlik deyil, asfaltdan idi. İnsanları da geyimi, görkəmi ilə dəyişmişdi. Mal-qara tövləsini maşın qarajı əvəzləmişdi.

Keçən əsrin 80-ci illərində kəndlərin siması doğrudan da dəyişməyə balamışdı. Çünki bu sovet dövlətinin daxili siyasəti idi. Kəndlə şəhər arasında, əqli əməklə fiziki əmək arasında və s. fərqlər sosializm cəmiyyətinin ən yüksək mərhələsi olan kommunizmdə mütləq aradan qalxmalıydı. Povestdə təsvir olunan kənd 80-ci illərdə şəhərləşməkdə olan kəndin simasını çox dəqiq əks etdirir.Yazıçı buna təəssüflənir. Axı kənd həyatı təbiətinin zənginliyi ilə, havası, suyu ilə ilkinlik rəmzidir. Düzdür, kənd də qazı, işığı, mətbəxt texnikası ilə şəhərə oxşasa yaxşıdır. Ancaq o müqəddəs ilkinliyə toxunmamaq şərti ilə.

Akademik Kamal Talıbzadə “Müasir kənd və nəsrimiz” məqaləsində yazır: “Orta və gənc nəsil ədəbiyyatımızı yeni keyfiyyətlərlə zənginləşdirmişlər. Onlar həqiqi vətəndaş olan, vicdan və namusla çalışan, çətinlikdən qorxmayan, təmiz mənəviyyatlı müasirlərimizin surətlərini yaradırlar, özü də hərtərəfli, qüsur və ziddiyyətləri ilə canlandırırlar... Bu yazıçıların əsərlərində fikir və mətləb orijinallığı, həyatı fəlsəfi ümumiləşdirməklə qavramaq meyilləri hiss olunur [3, s.135].

Bu baxımdan əsərin qəhrəmanı da tez-tez müasir kəndlə uşaqlıq illərinin kəndini müqayisə edir və üstünlüyü köhnə kəndə – bağlı, baxçalı kəndə verir.

Əsərin mənfi qəhrəmanları meşşan tipli insanlardır. Lovğalıq, hamıdan üstün olmaq düşüncəsi, xudbinlik, şöhrətpərəstlik onların digər insani keyfiyyətlərini itirmişdi. Məryəmin bibisi qızı Zərnişan, onun qızı, həyat yoldaşı bu tip insanlardır. Müəllif ən çox Zərnişanın və onun ərinin pisixologiyasını, dünyagörüşünü, kənd adamlarına olan münasibətlərini real təsvir edə bilmişdir.

Əsərin müsbət qəhrəmanları da az deyil. Onlar öz mənəvi zənginlikləri ilə, başqasının dərdini, ağrısını başa düşərək ona kömək etməsi ilə seçilir, fərqlənir. Baş qəhrəman Məryəm, polis Ədalət, şofer Dadaş, kəndin kasıb təbəqəsi və s. bu qəbildəndir.

Məryəm düşünürdü ki, kənddə yetim, kasıb uşaqlar çoxdur. Bu uşaqlar düzgün tərbiyə görməsələr, təhsil almasalar bir kəndin deyil, bir xalqın ağrısına çevrilə bilərlər. “Axı xalqın inkişafında böyüməkdə olan nəslin necə və hansı şəkildə tərbiyə olunmasının müstəsna dərəcədə əhəmiyyəti vardır. Millətin gələcəyi olan uşaqların mənəvi, əxlaqi, etik və estetik cəhətdən düzgün tərbiyəsi də həmin əhatəli tərbiyə sisteminin mühüm tərkib hissəsidir” [4, s.4].

Ədəbiyyatşünas M.Cəfərov “İki qurultay arasında” məqaləsində uşaq ədəbiyyatından bəhs edərkən yazır: “Cocuqluq ömrün ilk baharıdır. Uşaqlar üçün yazılan əsərlərdə hisslərin təbiiliyi, səmimiliyi, duyğuların təravəti və bədii formanın əlvanlığı ömrün ilk baharına uyğun olmalıdır” [5, s.115].

Düzdür, Nurəngiz Günün bu povesti birbaşa uşaqlar üçün deyil, uşaqlar haqqında yazılıb. Müəllif təbiiliyi də, səmimiliyi də qoruyub saxlaya bilmişdir. Ətraf aləmin hadisələri, dövrün reallığı, quruculuq işləri, məişət fonunda uşaqların gözü qarşısında baş verənlər olduğu kimi öz təsvirini tapmışdır. Yazıçı baş qəhrəmanın diliylə uşaqlara böyük gözü, böyük sözü ilə yanaşsa da

onların mənəvi aləmini, arzu-xəyallarını, yaş xüsusiyyətlərini, danışıq tərzlərini nəzərə alaraq təsvir etmişdir.

Nurəngiz Günün 80-ci illərin əvvəllərində qələmə aldığı bu tip hadisələrin baş alıb getdiyi dövrdən bəhs edən Bəkir Nəbiyev Xalq yazıçısı Mirzə İbrahimovun fikirlərini də önə çəkir: "...min sifətlə hər yerə yol tapıb soxulan, öz şəxsi işlərini sahmana qoyan insanlar həyatda çox yaxşı şəkildə təsdiq olunduqları halda belə onlar zahirən nəzəri cəlb etməyən adamlardan, əsl mənəvi həyatla yaşayan, özü də haysız-küysüz yaşayan, çalışan adamlardan qat-qat aşağıda dururlar. Cəmiyyət üçün zərərli zümrəyə çevrilən bu cür obrazları nəsrimiz ardıcıl surətdə ifşa edir. Onların labül mənəvi məğlubiyyəti sənətin mötəbər vasitələri ilə əsaslandırılır" [2, s.216].

Nurəngiz Günün digər povesti "Qırmızı gecə" adlanır. Əsərdə ölümlə həyat arasında çarpışan gənc ananın həyatı, düşüncələri təsvir olunub. O rəssamdır. "Otuz yeddidə" ata-anasını itirib. Həyatın ağırlığı, çətinliyi ilə təkbaşına üz-üzə dayanıb. Çəkdiyi rəsmləri müdiri bəyənmir, deyir ki, uydurmadır. Əri ona xəyanət edib, evdən gedib. Uşaqları körpədir. Yarıyuxulu, yarıxəyal ölməkdə olan ana Allahını köməyə çağırır.

Əsərin süjet xətti bu gənc ananın – Lilparın üzərində qurulub. Səhər-səhər ölməkdə olan ana kimsədən kömək, təskinlik ala bilmir. Valideynlərinin ruhuna sığınır. Ana ruhun mehribanlığına təslim olur. "Ana ruhunun zərif örtüyünün altından əzablı hıçqırıq eşidilirdi: – dünya üşüyür. Heç bilirsən dünya necə yazıqlaşıb? Xəyanət ediblər dünyaya, qızım! Əl qaldırıblar dünyaya!" [1, s.95]

Nurəngiz Gün bu kiçik povestində üstüörtülü məlum həqiqətləri önə çəkərək çox mətləblərə toxunur. Uzaq tarixə qayıdır. Nuhun gəmisini təsvir edir. Yaxın keçmişi vərəqləyir. "37"-dən bəhs edir. Müəllifin təsvirində həyat haqqında retrospektiv bədii təhkiyə xüsusi rol oynayır. Gah müəllifin, gah da personajların diliylə söylənilən hadisələr real həyat həqiqətlərindən uzaq görünsələr də yazıçı məqsədini həssas oxucusuna ötürə bilir.

Nurəngiz Günün yaradıcılığında müharibə mövzusu xüsusi önəm daşıyır. Ümumiyyətlə, yazarların müraciət etdiyi böyük mövzulardan biri, bəlkə də birincisi müharibə və onun törətdiyi genişmiqyaslı faciələrdir. İstər tarixi dönəmlərdə, istərsə də müasir dövrdə baş verən müharibə, münaqişələrlə bağlı istənilən qədər həm nəsr, həm də nəzmlə əsərlər yazılıb. Bu baxımdan Nurəngiz Günün də bu mövzuya müraciət etməsi təbiidir. Yazarın poemalarının da əksəriyyəti bu mövzudan qaynaqlanıb. İstər nəsrində, istərsə də nəzmində insan amili, insan faktoru önə çəkilir. Uşaqlığı müharibə dövrünə düşən Nurəngiz Günün yəqin ki, qırğınlara, döyüşlərə qarşı nifrəti də böyük, sonsuz olub. Ətrafındakı insanların bu dəhşətlərdən necə əziyyət çəkdiklərini öz gözləri ilə görüb.

Müharibə əhval-ruhiyyəsinin güzgüsü o dövr analarının yanaqlarında quruyub qalan göz yaşlarıdır. Onun mənəvi dünyasında, psixologiyasında baş verən fırtınaların sönməməsidir. Bu fırtınalar nəinki öləziyir, əksinə, oğlunu itirən anaları heç vaxt tərk etmir, onları son ana – ölümə qədər izləyir.

Müharibə mövzusunda yazılan əsərləri iki qurupa bölmək olar:

1. Müharibənin birbaşa özünü – döyüş səhnələrini, insanların igidliyini, qəhrəmanlığını və qələbənin şirinliyini yüksək pafosla tərənnüm edən əsərlər.

2. Müharibədən sonra onun vurduğu maddi və mənəvi zərbənin acı nəticələrini özündə əks etdirən, göstərən əsərlər.

Demək, yazar müharibənin özünü, yəni onu doğuran səbəbləri, qarşı-qarşıya duran dövlətləri, başlanan döyüşləri deyil, yalnız müharibənin doğurduğu nəticəni göstərir. Haqlı olaraq oxucusuna çatdırır ki, səbəb nə olur olsun, qələbəni hansı tərəfin çalmasından asılı olmayaraq müharibə heç vaxt heç kimə xeyir gətirməyib. Əgər əsas insan amilidirsə, müharibəni başlayan da, qurtaran da insandırsa, demək, zərbəni də insan alacaq. Onsuz da qısa olan insan ömrü yarıda qırılacaq. Sağ qalanlar da şikəst, əlil, zəlil gündə yaşayacaq. Maddi itkilər bərpa olunacaq, amma mənəvi itkiləri bərpa etmək mümkün deyil və bu neçə-neçə nəsli beləcə izləyəcək.

Ədəbiyyatşünas Yaşar Qarayev "Nəsrin müasirlik axtarışları" məqaləsində göstərir: "Ədəbiyyat öz böyük mənəvi-əxlaqi vəzifəsini, əlbəttə, həm müsbət, həm də mənfi qəhrəmanın vasitəsi ilə yerinə yetirir, ən müxtəlif və əlvan axtarışlara, yeniliklərə yol açır" [6, s.231].

**Nəticə / *Conclusion***

Beləliklə, Nurəngiz Günün nəsri öz dövrünü təsvir etmək baxımından xüsusi əhəmiyyətə malikdir. Real, təbii həyat hadisələrinə söykənən bu əsərlər ədəbiyyatımızda da özünəməxsus yer tutmaqdadır. Başqa sözlə desək, yazar sözdən elə bir qala hörüb ki, hələ çox-çox əsrlər bu qala yaşayacaq və ziyarətçilərini də sevə-sevə qəbul edəcək!

**Ədəbiyyat / *References***


1. Nurəngiz Gün. Povestlər, hekayələr və məqalələr. – Bakı: Vektor, 2004.
2. Nəbiyev B. Nəsrimiz bu gün. // Bəkir Nəbiyev. Seçilmiş əsərləri, V cild. – Bakı: Çinar-Çap, 2009.
3. Talıbzadə K. Seçilmiş əsərləri. – Bakı: Elm, 2015.
4. Məmmədova Ş. Uşaq ədəbiyyatı. – Bakı: ADPU, 2014.
5. Cəfərov M. İki qurultay arasında uşaq ədəbiyyatı // Həmişə bizimlə. – Bakı: Yazıçı, 1980.
6. Qarayev Y. Seçilmiş əsərləri, II cild. – Bakı: Elm, 2016.


## Проза Нурангиз Гюн


**Бахар Мамедова (Бардали)**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: baharmemmedova288@gmail.com



**Резюме**. Нурангиз Гюнь пришла в литературу в 80-е годы XX века. Она известена как поэт и прозаик. Прозаические произведения занимают центральное место в её творчестве. Прозаические произведения писателя, как и её стихи, являются художественным отражением жизненной действительности. Первое прозаическое произведение – повесть "Бог дитя вселенное", опубликованная в 1981 году в журнале "Звезда". Произведение посвящено общественно-социальными процессам, происходившим в селе в 70-80-е годы, нравственным ценностям, моральному кризису. Особое место в повествовании отведено детям. На первый план выдвинуты страдания, которые чаще всего испытывают дети-сироты.
Другая повесть писателя называется "Красная ночь". В произведении описана жизнь, мысли молодой матери, которая отчаянно боролась между жизнью и смертью.
В рассказе «Самый высокий цветочный холм и снежный колодец» автор размышляет о 40-70-е годах прошлого века. То есть в центре внимания семейная трагедия, произошедшая в результате Второй мировоц войны и последующая судьба осиротевшего ребенка.


**Ключевые слова**: Нурангиз Гюн, Бог, проза, повесть, деревия, город